*Zəfər təqviminin səhifəsi*



# Ağdam 2 ildir ağ günlərinə qovuşub

**Ağdamın erməni vandallarının 27 illik işğalından azad edilməsindən 2 il keçir. 2020-ci ilin 44 günlük Vətən müharibəsində Qarabağ cəbhəsinin sağ və sol cinahlarında düşmən ordusunun güclü həmlə ilə darmadağın edilməsi, təcavüzkar Ermənistanın quldur silahlı dəstələrinin ərazilərimizdən qovulub çıxarılması düşmən ölkənin rəhbərliyini Ağdamı döyüşsüz geri qaytarmağa məcbur etmişdi.**

Bəs necə olmuşdu ki, Azərbaycanın sosial-iqtisadi potensial baxımından ən güclü rayonlarından biri 1993-cü ilin yayında asanlıqla qaniçən, dağıdıcı düşmənin əlinə keçmişdi? – Bu, birinci növbədə, müstəqilliyin ilk illərində ölkədə hökm sürən başıpozuqluq və çəkişmələrin nəticəsi olmuşdu. Ağdam xəyanət və məsuliyyətsizliyin qurbanı olduğu kimi, sarsılmaz yurd sevgisi və Xalq–ordu–lider birliyinin yaratdığı möhtəşəm rəşadəti nəticəsində də azadlığına qovuşdu.

Hərbi-siyasi mütəxəssislər bildirirlər ki, Vətən müharibəsində düşmən cinahlarda məğlub edilməsəydi, İkinci Qarabağ savaşının ən mürəkkəb və daha çox itki tələb edəcək döyüşləri ermənilərin möhkəmləndiyi qövsvari yüksəkliklərlə əhatə olunmuş Ağdam ərazisində aparılacaqdı. Buna görə də Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hazırlanmış mükəmməl planla Azərbaycan Silahlı Qüvvələri soldan Arazqırağı irəliləyərək Şərqi Zəngəzur ərazilərini azad etmiş, Laçın dəhlizinə çıxmışdı. Sağdan isə ordumuz Suqovuşanı azad edərək Murov yüksəkliyinə çıxmış, düşmən qüvvələrin Ermənistanla əlaqəsini kəsmişdi. Hadrutun ələ keçirilməsi Şuşaya arxadan yol açmışdı. Nəhayət, noyabrın 8-də qala-şəhərin azad edilməsi isə Laçın dəhlizini içəridən qapatmışdı.

Beləliklə, Xankəndi, Ağdərə, Əsgəran və Xocavənddə Ermənistan silahlı qüvvələri mühasirə vəziyyətinə düşmüş, kənarda qalmış düşmən dəstələri kütləvi surətdə fərarilik etmişdi. 44 gün ərzində ətraf yüksəkliklərdən Ağdam, Ağcabədi, Tərtər rayonlarının dinc əhali yaşayan məntəqələrini amansız artilleriya atəşi altında saxlayan, ciddi itki və dağıntılar törədən düşmən birləşməsi məhv edilməkdən yaxa qurtarmaq üçün silahı yerə qoymalı olmuşdu. Bu, açıq döyüş meydanında qazanılmış qələbə qədər önəmli bir taktiki uduş olmuşdu. 30 il ərzində bir qarış torpağı belə geri qaytarmağı yaxına qoymayan işğalçı Ermənistan təslim olduğunu etiraf edərək, Ağdam və Kəlbəcər rayonarından və Laçın dəhlizindən soldakı ərazilərindən müqavimətsiz çıxmağa məcbur qalmışdı.

2 il əvvəl – noyabrın 20-də Ağdamın düşməndən geri alındığı gün rayonda qələbə bayrağını qaldıraraq xalqımızı ölüm-dirim savaşlarında qazanılmış qələbələrdən heç də geri qalmayan – döyüşsüz əldə edilən siyasi-diplomatik zəfər münasibətilə təbrik edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təntənə ilə demişdi: "Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Ağdamın işğaldan azad edilməsi şanlı hərbi qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir".

İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayonu sakinlərinin sayı 210 minə yaxındır. Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək, bir çox halda yenidən yaratmaq üçün irimiqyaslı layihələr hazırlanıb gerçəkləşdirilir. Dövlət başçısının bildirdiyi kimi, 27 il didərginlik həyatı yaşamış, düşmənin intensiv atəşi altında qurub-yaratmış ağdamlılar əmindirlər ki, Azərbaycan dövləti hər zaman olduğu kimi, bu gün də onların yanındadır. Bunun üçün bütün işlər əsaslı şəkildə aparılır. Ağdam şəhərinin Baş planı hazırlanmış, mütəxəssislər cəlb olunmuş, infrastruktur layihələri planlı şəkildə icra edilir, ilk növbədə, yollar və digər kommunikasiyalar bərpa edilir.

Qarabağın baş qapısı sayılan Ağdamın işğaldan azad edilməsindən keçən 2 il bu tarixi hadisənin önəminə layiq irimiqyaslı işlərin gerçəkləşdirilməsinə start verilməsi, bir sıra layihələrin icrasının sürətlə davam etdirilməsi ilə əlamətdardır. Bu barədə danışan Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov bildirdi:

– Qarabağın qeyrət qalası və zəhmət bölgəsi sayılan Ağdamın 2 il əvvəl noyabrın 20-də Ermənistanın təslim aktı sayılan üçtərəfli Bəyanata əsasən, ölkəmizin nəzarətinə verilməsi tarixi bir rəşadət, möcüzəli bir nailiyyətdir. Bizə bu xoşbəxtliyi Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə qəhrəman Azərbaycan əsgəri və zabiti bəxş etmişdir. Bu misilsiz zəfərin nəticəsidir ki, cənab Prezidentin Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində dediyi kimi, rayonun işğal altında olan əraziləri bir güllə atılmadan, bir nəfər şəhid verilmədən geri qaytarılmışdır.

150 mindən artıq əhalisi, böyük varidatı, güclü sosial-iqtisadi potensialı və çoxəsrlik yüksək mədəni irsi olan bu rayonun başıpozuqluq nəticəsində düşmənin əlinə keçməsi Azərbaycan üçün ciddi itki oldu.

Ağdamlılar 27 il ulu öndər Heydər Əliyevin "Qarabağsız Azərbaycan, Şuşasız Qarabağ yoxdur!" hökmünə, Prezident İlham Əliyevin "Biz Ağdama da, Şuşaya da, Laçına da, işğal altında olan bütün torpaqlarımıza da qayıdacağıq!" vədinə inanaraq toxtaqlıq tapmış, dözüm qazanmışdılar. Cənnət Qarabağa dönəcəyimizə ötən illərdə zərrə qədər də şübhəmiz olmamışdı.

30 il düşmən tapdağında inləmiş, xarabalığa çevrilmiş cənnət Qarabağın mənfur yağıdan xilas edilməsi hər bir soydaşımızın ən böyük arzusunun, ən başlıca istəyinin gerçəkləşməsi anlamında ümummilli bir xoşbəxtlikdir. Xalqımız öz tarixinin ən möhtəşəm zəfərini təkcə qəsdimizə durmuş ermənilər üzərində deyil, həm də düşməni bu haqsızlığa təhrik etmiş, onun ədalətsizliklərinə və vəhşiliklərinə uzun müddət göz yummuş güclü havadarları ilə dirənişdə qazanmışdır.

Sonda bildirək ki, Qarabağ, onun baş qapısı Ağdam tarix boyu olduğu kimi, yenə də bizimdir və dövlət başçısı İlham Əliyevin təntənə ilə bəyan etdiyi kimi, əbədi bizim olacaq.

**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**

## Ekspert rəyi



**Şair Ramaldanov,**
**ehiyatda olan polkovnik**

Düşmənə vurulan bu sarsıdıcı zərbə – onun özünün bais olduğu müharibədə uduzması bir daha göstərdi ki, işğalçı Ermənistan belə ağır və rüsvayçı məğlubiyyəti əvvəlcədən görməli, bütün istiqamətlərdə darmadağın ediləndən sonra qəbul etdiyi razılaşmanı bu qədər gecikdirməməli idi. Əgər düşmən Azərbaycan liderinin dediyi kimi, münaqişənin həllinin siyasi yolunu seçsə idi, savaşda bir neçə dəfə artıq itkilərlə üzləşməz, sonda rəzil günə düşməzdi. Azərbaycan öz qələbəsi ilə münaqişənin hərbi yolla həllinin insanların taleyi baxımından məqbul olmadığını nəticə etibarilə düşmənə anlatmaqla göstərdi ki, müharibəni davam etdirmək onun tamamilə məhv olması deməkdir. Bununla Azərbaycan həm özünü, həm də işğalçı ölkəni növbəti itkilərdən xilas etdi.

İşğalçı Ermənistanın Ağdamı dinc yolla geri qaytarması onun 30 illik mənasız inadının sındırılması, dikbaşlığına son qoyulması demək idi. Müharibənin davamında Azərbaycanın canlı qüvvə və digər itkiləri yenidən artacaqdısa, Ermənistanın Qarabağdakı çoxminli canlı qüvvəsi məhv edilib əsir götürüləcək, hərbi potensialı tamamilə dağıdılacaqdı. Ağdam və digər ərazilərin dinc yolla azad edilməsi Azərbaycanın mütləq qələbəsi idisə, Ermənistanın da nicat yolu, bir dövlət kimi mövcudluğu şansı idi.

Azərbaycan qazandığı hərbi-siyasi zəfərlə Ermənistana düşdüyü 30 illik Qarabağ bataqlığından çıxmaq imkanı yaratdı. Ötən bir ildə bu imkandan payından küsmüş uşaqlar kimi istifadə etməyən Ermənistan, görünür, hələ də baş verənlərin ağrısından ayıla bilmir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir il əvvəl Ağdamdan bütün dünyaya verdiyi açıqlamanın davamında böyük inamla bildirdi ki, Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi, həm də əhali baxımından böyük rayondur.